**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Ölkənin davamlı inkişafının təmin edilməsi məqsədi ilə aparılan sosial-iqtisadi islahatların dərinləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək əlavə dəyərin yaradılması və ixrac potensialının artırılması vəzifələri müvafiq sahələrdə struktur dəyişikliklərinin sürətləndirilməsini və dövlət idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir.

İqtisadi artım üçün əlverişli şəraitin yaradılmasına cavabdeh olan dövlət orqanlarının koordinasiyalı fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yeni strukturu təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən olunsun ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının və onların tabeliyində olan qurumların strukturu, işçilərinin say həddi, hüquqi vəziyyəti, vəzifə maaşları, əməyin ödənilməsi sistemi və xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri ilkin mərhələdə dəyişməz olaraq qalır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Əsasnaməsinin yeni layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. barələrində nizamnamə kapitalındakı dövlət payının idarə edilməsi funksiyaları həyata keçiriləcək kommersiya təşkilatlarının siyahısını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan dövlət orqanlarının yeni əsasnamələri təsdiq edilənədək onlar öz fəaliyyətlərini mövcud əsasnamələri əsasında davam etdirsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 oktyabr 2019-cu il
845

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin aparatı (şöbələr və sektorlar).

*1-1. Çağrı Mərkəzi.*[1]

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti *və tabeliyindəki vergi orqanları.*[2]

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti *və onun yerli bölmələri.*[3]

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti *və onun yerli bölmələri.*

5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin regional bölmələri.

6. Azərbaycan Respublikasının xarici ölkələrdə ~~fəaliyyət göstərən səfirlik və konsulluqlarında~~ ticarət nümayəndələrinin aparatları.[4]

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 26 iyun 2021-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 iyun 2021-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 597)**
2. 23 iyul 2021-ci il tarixli **1409** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 24 iyul 2021-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 743)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 26 iyun 2021-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 iyun 2021-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 597)** ilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"na yeni məzmunda 1-1-ci hissə əlavə edilmişdir.

[2] 26 iyun 2021-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 iyun 2021-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 597)** ilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 2-ci hissəyə "**Xidməti**" sözündən sonra "**və tabeliyindəki vergi orqanları**" sözləri əlavə edilmişdir.

[3] 26 iyun 2021-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 iyun 2021-ci il, 133 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 597)** ilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 3-cü və 4-cü hissələrə "**Xidməti**" sözündən sonra "**və onun yerli bölmələri**" sözləri əlavə edilmişdir.

[4] 23 iyul 2021-ci il tarixli **1409** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 iyul 2021-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 743)** ilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 6-cı hissəsindən "**fəaliyyət göstərən səfirlik və konsulluqlarında**" sözləri çıxarılmışdır.